# “Bakı-2015” birinci Avropa Oyunlarında könüllü

## *18 nəfər sağlamlıq imkanları məhdud gənc Oyunların Əməliyyat Komitəsi tərəfindən könüllü kimi uğurlu fəaliyyətlərinə görə müvafiq sertifikatlara layiq görülüblər*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzində peşə təlimi kurslarını bitirmiş 18 nəfər sağlamlıq imkanları məhdud gənc “Bakı-2015” birinci Avropa Oyunlarında könüllü kimi iştirak ediblər. Həmin gənclər “Bakı-2015” Avropa Oyunları Əməliyyat Komitəsi tərəfindən könüllü kimi uğurlu fəaliyyətlərinə görə müvafiq sertifikatlara layiq görülüblər.** Onlar ölkəmizdə ən yüksək standartlar səviyyəsində keçirilən və dünya idman tarixində yeni səhifə açan bu möhtəşəm idman bayramında könüllü gənclər arasında olmalarından və tapşırılan vəzifələri göstərilən etimada layiq şəkildə yerinə yetirmələrindən sonsuz şərəf və qürur hissi keçirdiklərini vurğulayıblar. Bu böyük idman tədbirində könüllü kimi öz əməyini sərf etmək həmin sağlamlıq imkanları məhdud gənclərdə öz güclərinə, potensiallarına inam hissini xeyli artırmaqla və böyük təcrübə qazandırmaqla onlara gələcək həyatlarında daim özünü doğrultmaq, uğur qazanmaq üçün güclü bir stimul verib.



Bu barədə nazirliyin ictimaiyyətlə əlaqələr sektorundan verilən məlumatda qeyd olunur ki, Mərkəzdə peşə təlimi keçən gənclərin “Bakı-2015” açılış və bağlanış mərasimlərini canlı şəkildə izləmələri, mütəmadi olaraq yarışlarda tamaşaçı kimi iştirak etmələri də təmin edilib. Yarışlarda Azərbaycan yığmasının qazandığı mühüm tarixi nailiyyətlər, xüsusən paracüdoçularımızın uğurları, o cümlədən ikiqat paralimpiya və dünya, beşqat Avropa çempionu İlham Zəkiyevin parlaq qələbəsi onlara sonsuz sevinc və fərəh hissi bəxş edib. Peşə Reabilitasiya Mərkəzində müxtəlif peşə və sənət növləri üzrə təlim kursları təşkil edilməklə bərabər, respublika və beynəlxalq səviyyəli yarışlarda iştirak edəcək paralimpiyaçı gənclərin idmanın müxtəlif növləri üzrə hazırlıq keçmələri də təmin olunur. Bu ilin ötən dövründə 29 nəfər paralimpiyaçının burada məşq prosesini keçmələrinə şərait yaradılıb.



Bildirilir ki, 2013-cü ilin dekabrında möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı ilə açılışı olan Sağlamlıq imkanları məhdud gənclərin Peşə Reabilitasiya Mərkəzində təkcə cari ilin 6 ayında 258 nəfər sağlamlıq imkanları məhdud gənc peşə hazırlığı kursu keçib. Həmin gənclərdən 183 nəfəri bu ilin ötən dövründə kurslara cəlb edilib. Gənclər burada kompüter istifadəçisi və kompüter dizayneri, dərzi, bərbər, toxuculuq, ağac üzərində oyma, rəssamlıq, kulinariya, xalçaçılıq, rəssamlıq, toxuma və s. peşələr üzrə bilik və bacarıqlara yiyələniblər. Onlardan 144 nəfəri artıq kursları başa vurub və onlara peşə şəhadətnamələri, yalnız özünüməşğulluq imkanlarına yiyələnə bilən şəxslərə isə peşə kursunu bitirmələri barədə arayışlar verilib, digər gənclərin isə peşə təlimi kursu davam edir.

Məlumatda gənclərin burada peşə təlimində olduqları müddətdə dövlət hesabına yataqxana, yemək, tibbi-fizioterapevtik xidmət və s. ilə də təmin olunduqları, sosial reabilitasiyası, müxtəlif mədəni-kütləvi tədbirlərdə iştirakı, onlar üçün ekskursiyaların təşkili və s. istiqamətlərdə də məqsədyönlü işlərin aparıldığı diqqətə çatdırılır.

**M.MUSTAFAYEV,**
**“Respublika”.**